

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 200 (21.861)

21 oktyabr 2017-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika




Oktyabrın 20-də İstanbulda İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) "Əməkdaşlıq yolu ilə imkanları artırmaq" devizi altında IX Zirvə görüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə xüsusi qonaq qismində Zirvə görüşündə iştirak edib.

Azərbaycan Prezidenti İlham Əliyev D-8 IX Zirvə görüşündə çıxış edib.

Zirvə görüşündə D-8 Şurasının 16-cı, 17-ci və xüsusi sessiyalarının hesabatları dinlənilib, gündəlikdə duran məsələlər müzakirə olunub.

Sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Azərbaycan Prezidenti İlham Əliyevin və digər ölkələrin dövlət və hökumət başçılarının iştirakı ilə D-8 təşkilatı ilə İslam İnkişaf Bankı arasında Anlaşma Memorandumu imzalanıb.

Doqquzuncu Zirvə görüşü ilə D-8 təşkilatının fəaliyyətinin 20 illik dövrü əhatə edən birinci mərhələsinə yekun vurulub, yeni mərhələ üçün hədəflər və fəaliyyətin əsas istiqamətləri müəyyənləşdirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına səfəri oktyabrın 20-də başa çatıb.

## Şərur rayonunun Qarahəsənli kəndində yeni sosial obyektlər istifadəyə verilib

Ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin təməlində sabitlik, inkişaf və tərəqqi dayanır. Bu gün muxtar respublikanın davamlı inkişafı da bu siyasi xəttin bəhrəsidir. Aparılan quruculuq işləri və həyata keçirilən sosial-iqtisadi islahatlar bölgələrin tarazlı inkişafına səbəb olub. Bu gün kəndlərdə müasir şəhər infrastrukturu yaradılır. Sakinlərin rahat yaşayışı təmin olunur, əhaliyə göstərilən xidmətin səviyyəsi yüksəldilir.

Oktyabrın 20-də Şərur rayonunun Qarahəsənli kəndində yeni sosial obyektlər istifadəyə verilmişdir.

## Kənd yolu yenidən qurulmuşdur



Hər bir yaşayış məntəqəsinin inkişafı onun yolundan başlanır. Müasir yol rahat yaşayış deməkdir. Muxtar respublikanın kəndlərində də yolların yenidən qurulmasına xüsusi diqqət yetirilir.

Oktyabrın 20-də Qarahəsənli kənd avtomobil yolu yenidənqurma işlərindən sonra istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yolun açılışını bildirən lenti kəsmişdir.

Bildirilmişdir ki, 3 kilometrlik yol genişləndirilərək asfalt örtük salınmış, hərəkət qaydalarına uyğun olaraq işarələnmiş, 4,8 kilometrlik kənddaxili yol hamarlanaraq qum-çınqıl qatı verilmiş, ilin bütün fəsillərində nəqliyyat vasitələrinin fasiləsiz və təhlükəsiz hərəkəti təmin edilmişdir. Yolun üzərindəki körpü təmir olunmuş, 28 su keçidi qoyulmuş, 928 metrlik beton kanal çəkilmişdir.

## Qarahəsənli kənd tam orta məktəbinin yeni binası istifadəyə verilmişdir





Oktyabrın 20-də Qarahəsənli kənd tam orta məktəbinin yeni binasının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, 2 mərtəbəli binada müasir tədrisin tələblərinə uyğun şərait yaradılmış, əyani vəsaitlər və yeni texnologiyalarla təmin olunmuş fənn kabinələri istifadəyə verilmişdir. 234 yerlik məktəb binasında 3-ü elektron lövhəli olmaqla, 12 sinif otağı, fizika və kimya-biologiya laboratoriyaları, hərbi kabinə, şahmat sinfi, kompüter otağı, müəllimlər otağı, psixoloq otağı, kitabxana və idman zalı vardır. Məktəbin kitabxanasında 988-i dərslik və 1904-ü bədii ədəbiyyat olmaqla 2892 kitab vardır. Burada oxunması zəruri olan kitablardan ibarət guşə də yaradılmışdır.

Kompüter otağında sürətli internetə çıxışı olan 19 kompüter quraşdırılmışdır. Elektron lövhəli sinifdə "Əlincəqala" Dövlət Tarix Memarlıq Muzeyi ilə interaktiv əlaqə yaradılmış, eyni vaxtda interaktiv dərs muxtar respublikanın 218 təhsil müəssisəsində izlənilmişdir.

Şahmat sinfinə baxış zamanı qeyd olunmuşdur ki, məktəbdə həftədə iki saat şahmat dərsi tədris olunur. Bu da şagirdlərin zehni inkişafına köməklik göstərir. Hazırda məktəbin şagirdləri şahmat üzrə rayon və muxtar respublika birinciliklərində uğurla iştirak edirlər. Bir şagird şahmat üzrə muxtar respublika birinciliyində ikinci yerə layiq görülmüşdür.

Məktəbin fizika və kimya-biologiya laboratoriyaları əyani vəsaitlər, elektron dərslik və elektron lövhə ilə təmin edilmişdir.

Ali Məclisin Sədri dəqiq elmlərin tədrisində elektron dərsliklərdən və əyani vəsaitlərdən istifadənin vacibliyini vurğulamış, tədrisin təşkili ilə bağlı müvafiq tapşırıqlar vermişdir.

Sonra məktəbin müəllimləri ilə görüş olmuşdur.

Ali Məclisin Sədri pedaqoji kollektivi yeni məktəb binasının istifadəyə verilməsi münasibətilə təbrik edərək demişdir: Müəllimlər bu gündən etibarən müasir məktəb binasında fəaliyyət göstərəcəklər. Qarahəsənli kənd tam orta məktəbi daim təhsil sahəsində qazandığı nailiyyətlərlə seçilib. Ötən tədris ilində də məktəbin məzunları ali və orta ixtisas təhsili məktəblərinə, eləcə də Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunub. Bu da məktəbdə tədrisin düzgün qurulmasının nəticəsidir.

Ali Məclisin Sədri qazanılan nailiyyətlərə görə kollektivə təşəkkür edərək demişdir: Yaradılan şəraitdən səmərəli istifadə gələcəkdə məktəbin nailiyyətlərinin daha da artmasına imkan verəcəkdir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***"Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır".*** Bu gün Qarahəsənli kənd tam orta məktəbində gənclərə bilikləri hərtərəfli öyrətmək üçün müasir tədris şəraiti yaradılıb, elektron lövhələr, laboratoriyalar, kompüter sinfi istifadəyə verilib. Həmçinin məktəbdə bütün fənlər üzrə müəllimlər fəaliyyət göstərir. Dövlətimiz tərəfindən təhsil sahəsində həyata keçirilən bu tədbirlər, müəllimlərin

Ardı 2-ci səhifədə



fəaliyyəti üçün yaradılan şərait gələcəyimizin daha möhkəm və etibarlı olmasına xidmət edir. Çünki ölkəmizin etibarlı gələcəyi bu gün məktəblərdə yetişən vətənpərvər və təhsilli gənclərdən asılıdır. Bu gələcəyi hazırlayan isə müəllimlərdir. Müəllimlər gənclərin hazırlığına xüsusi diqqət yetirməlidirlər. Hər bir gənc, ilk növbədə özünü vətənə xidmətə hazırlamalıdır ki, gələcəkdə seçdiyi peşə üzrə ölkəmizin inkişafına töhfə verə bilsin.

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin icrasında müəllimlərə uğurlar arzulamışdır.

Məktəbin müəllimi Şəbnəm Əliyeva kollektiv adından minnətdarlıq edərək demişdir: Yeni məktəb binası kollektivin böyük sevincinə səbəb olub. Yaradılan şərait müəllimlərin məsuliyyətini daha da artırır. Qarşımıza qoyulan vəzifələrin icrasında səylə çalışacaq, vətənpərvər və təhsilli gənclərin yetişdirilməsində bilik və bacarığımızı əsirgəməyəcək, göstərilən etimadı doğruldacağıq.

Məktəb binasının həyətində də abadlıq işləri aparılmış, bufet və açıq idman qurğuları istifadəyə verilmişdir.

## Qarahəsənli Kənd Mərkəzində hərtərəfli şərait yaradılıb






Həmin gün Qarahəsənlidə kənd mərkəzinin də açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov mərkəzin açılışını etmişdir.

Bildirilmişdir ki, mərkəzdə inzibati ərazi dairəsi və kənd bələdiyyəsi üçün iş otaqları, baytarlıq məntəqəsi, 3354 kitab fondu olan kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı üçün otaq, rabitə evi, feldşer-mama məntəqəsi, statistika otağı, 44 yerlik zal, polis sahə məntəqəsi və mədəniyyət evi yerləşir. Rabitə evində poçt bölməsi fəaliyyətə başlamış, 224 yerlik ATS quraşdırılmış, kənddə abonentlərə genişzolaqlı və sürətli internet xidmətinin göstərilməsi təmin edilmişdir.

Yeni Azərbaycan Partiyası Qarahəsənli kənd ərazi ilk təşkilatının sədri Baxşəli Zeynalov demişdir ki, kənd quruculuq işlərindən sonra müasir yaşayış məntəqəsinə çevrilib. Sakinlər bu işə öz töhfələrini vermək üçün səylə çalışırlar. Partiyanın ərazi ilk təşkilatının 65 üzvü vardır ki, onların da çox hissəsi gənclər və ali təhsili olanlardır. Partiya üzvləri kəndin ictimai-mədəni həyatında fəal iştirak edirlər. Çalışırıq ki, qurulanlardan, yaradılanlardan səmərəli istifadə edərək onları gələcək nəsillər üçün qoruyub saxlayaq.

Ali Məclisin Sədri kənddə idarəetmənin təşkili, əhalinin məşğuliyyəti və yaşayışı ilə maraqlanmış, müvafiq tapşırıq və tövsiyələrini vermişdir.

Tibbi avadanlıqlar və dərman vasitələri ilə təchiz olunmuş feldşer-mama məntəqəsi mərkəzin birinci mərtəbəsində yerləşir və 4 otaqdan ibarətdir. Burada peyvənd və ilkin tibbi yardım çantaları qoyulmuş, sakinlərin sağlamlığının qorunması üçün lazımi şərait yaradılmışdır.

Baxış zamanı qeyd olundu ki, kənddə uşaqlar mütəmadi olaraq peyvəndə cəlb olunur, hamilə qadınlarla işə xüsusi diqqət yetirilir. Bu il Qarahəsənli kəndində 16 uşaq doğulmuşdur.

## Kənddə yeni xidmət mərkəzi istifadəyə verilmişdir



Oktyabrın 20-də Qarahəsənli kəndində yeni xidmət mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmiş, mağazalarda və xidmət sahələrində yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, xidmət mərkəzində bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və təsərrüfat malları olmaqla 2 mağaza, 2 anbar və dərzi fəaliyyət göstərir. Mərkəzdə 6 nəfər işlə təmin olunub.

Xidmət mərkəzi ilə tanışlıqdan sonra kənd sakinləri ilə görüş olmuşdur.

Ali Məclisin Sədri sakinləri kənddə aparılan quruculuq işləri münasibətilə təbrik edərək demişdir: Qarahəsənli muxtar respublikanın abad kəndlərinin sırasına qoşuldu. Kənddə müasir infrastruktur yaradılıb. Yol, məktəb binası və digər sosial obyektlər istifadəyə verilib, dayanıqlı elektrik, qaz, rabitə və internet xidmətinin göstərilməsi təmin olunub. Bu gün Azərbaycan dövləti ulu öndərin yolu ilə gedərək hərtərəfli inkişafa nail olmuşdur. Ölkə Prezidentinin ümummilli liderin yolunu davam etdirməsi və göstərdiyi səylər bütün yaşayış məntəqələrinin inkişafına səbəb olmuşdur. Qısa müddətdə həyata keçirilən tədbirlər Qarahəsənlini də müasir Azərbaycan kəndinə çevirmişdir. Bütün bunlar dövlətimizin öz insanlarına qayğısının bir kəndin timsalında nümunəsidir. Yaradılan şərait sakinlərin rahat yaşayışına və təsərrüfatlarının daha da genişləndirilməsinə xidmət edir. Tikilənləri, qurulanları qoruyub saxlamaq, torpaqları əkmək və bol məhsul istehsal etmək isə sakinlərin qarşısında duran əsas vəzifələrdir.

Sakin Məhəmməd Kərimov minnətdarlıq edərək demişdir: Qarahəsənli kəndinin sakinləri ölkəmizin inkişafında yaxından iştirak edirlər. Kəndin iki Milli Qəhrəmanı və bir şəhidi vardır. Övladım Kərim Kərimov Azərbaycan Respublikasının Milli Qəhrəmanıdır. Bu gün muxtar respublikada milli qəhrəmanlarımızın, şəhidlərimizin adı uca tutulmaqla yanaşı, həm də onların valideynlərinə də hərtərəfli qayğı göstərilir. Qarahəsənli kəndində hər bir ailə dövlət qayğısı ilə əhatə olunub. Yollarımız abadlaşıb, içməli və suvarma suyu ilə təminatımız yaxşılaşıb, rahat yaşayışımız üçün bütün tədbirlər görülüb. Dövlətimizin öz vətəndaşlarına bu cür qayğısı bizi daha da ruhlandırır. Söz veririk ki, bundan sonra da ölkəmizin inkişafına öz töhfəmizi verəcəyik.

* * *

Kənddə kommunikasiya xətləri də yenilənmiş, 2470 metr fiber-optik kabel, 7080 metr rabitə, 670 metr elektrik xətti çəkilmiş, 3600 metr qaz xəttində təmir-bərpa işləri aparılmışdır. Həmçinin əhalinin içməli suya olan tələbatının yaxşılaşdırılması məqsədi ilə 1050 metrlik yeni içməli su xətti çəkilmiş, Arpaçayın sahilində 400 metr məsafədə ikitərəfli sahilbərkitmə işləri aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



# Naxçıvanda Azərbaycan oftalmoloqlarının IV regional konfransı keçirilib

***Oktyabrın 20-də Naxçıvanda Azərbaycan oftalmoloqlarının "Müasir oftalmologiya elminin inkişafı, nailiyyətlər və problemlər" mövzusunda IV regional konfransı keçirilib.***



Konfrans iştirakçıları əvvəlcə müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində əzəmətlə ucaldılan abidəsini ziyarət edib, abidə önünə tər gül dəstəsi düzüblər. Sonra Heydər Əliyev Muzeyinə baxış olub.

Naxçıvan Muxtar Respublika Xəstəxanasında keçirilən tədbiri Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov açaraq səhiyyənin inkişafından və oftalmologiya sahəsində görülən işlərdən danışıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov Ali Məclis Sədrinin konfrans iştirakçılarına salamlarını və konfransın təşkilatçılarına təşəkkürünü çatdırıb.

Sonra Rəhman Məmmədov çıxış edərək deyib ki, muxtar respublikada bütün sahələrdə olduğu kimi, səhiyyənin inkişafı sahəsində də mühüm işlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə səhiyyə sisteminin yenidən qurulması, müasir standartlara uyğunlaşdırılması, səhiyyə infrastrukturunun və maddi-texniki bazasının yaxşılaşdırılması sahəsində ardıcıl iş aparılır. Bununla yanaşı, ixtisaslı tibbi kadrların hazırlanması da diqqət mərkəzində saxlanılır. Həkimlər müxtəlif ixtisasartırma kurslarına cəlb olunurlar. Həmçinin müxtəlif mövzularda konfranslar təşkil edilir, birgə müayinələr və cərrahi əməliyyatlar aparılır.

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Naxçıvanda Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin IV regional konfransının keçirilməsi ilə bağlı təşəbbüsü, yüksəkixtisaslı həkim briqadalarının yerli həkimlərlə birgə hər il çoxlu sayda müxtəlif cərrahi əməliyyatları uğurla həyata keçirmələri muxtar respublika əhalisinin sağlamlığının qorunmasında, həm də yerli həkimlərin təcrübələrinin artırılmasında əhəmiyyətli rola malikdir.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Naxçıvan Muxtar Respublikasında səhiyyənin inkişafındakı fəaliyyətinə görə Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanı ilə təltif edib.

Rəhman Məmmədov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanını Milli Oftalmologiya Mərkəzinin direktoru Elmar Qasımova təqdim edib.

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin direktoru, AMEA-nın müxbir üzvü, professor Elmar Qasımov göstərdiyi diqqət və qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlığını bildirib. Qeyd edib ki, konfransın Naxçıvanda keçirilməsi heç də təsadüfi deyil. Azərbaycanın qədim diyarlarından olan Naxçıvanda səhiyyənin inkişafı, tibbi xidmətin səviyyəsinin yüksəldilməsi, ixtisaslı kadrların hazırlanması istiqamətində mühüm işlər görülür. Azərbaycan Oftalmoloqlar Cəmiyyəti də yarandığı gündən ölkəmizdə oftalmoloqların peşəkarlıqlarının artırılmasında öz dəstəyini əsirgəməyib. Eyni zamanda oftalmoloqların üzləşdiyi problemlərin həllində də öz yardımını göstərib. Naxçıvanda bu tədbirin keçirilməsində də məqsəd göz xəstəlikləri ilə bağlı fikir mübadiləsi aparmaqdan ibarətdir. Konfransda ölkəmizin digər regionlarından olan oftalmoloqlar göz xəstəlikləri ilə bağlı mühazirələrini təqdim edəcəklər.

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin həkimlərindən tibb elmləri doktoru Hicran Namazova, professor Kərəm Kərimov, Ceyhun Nəzərli və tibb üzrə fəlsəfə doktoru Yazgül Abdıyeva konfransda çıxış etmişlər.

Həmçinin konfransda "Naxçıvanda oftalmoloji xidmətin təşkili və inkişaf tarixi", "Paralitik çəpgözlüklər: klinika, diaqnostika, cərrahi müalicədə yeniliklərimiz və nailiyyətlərimiz", "Qarışıq astiqmatizmli xəstələrdə femto-lasik texnologiyasının istifadəsi" və digər mövzularda məruzələr dinlənilib, oftalmoloqlar arasında qarşılıqlı fikir mübadiləsi aparılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Fransalı diplomat Naxçıvan Muxtar Respublikasının təhsil, mədəniyyət və səhiyyə müəssisələri ilə tanış olub





***Xəbər verdiyimiz kimi, oktyabrın 18-19-da Fransa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Orelia Buşez geniş tərkibdə muxtar respublikaya səfər edib.***

Səfir ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucalan abidəsi önünə gül dəstələri qoyub, dahi rəhbərə hörmət və ehtiramını ifadə edib. Daha sonra fransalı qonaqlar tərəfindən Heydər Əliyev Muzeyi ziyarət olunub.

Orelia Buşez Naxçıvan Biznes Mərkəzində də olub. Burada səfirə məlumat verilib ki, mərkəzdə muxtar respublikada 100-ə yaxın istehsal və xidmət müəssisəsi tərəfindən istehsal edilən məhsullar nümayiş olunur. Sərgidə Naxçıvanın yerli məhsulları olan kərpicdən mebel dəstinə, kiçik plastik hissələrdən dam örtüyünə, mineral sulardan ərzaq məhsullarına, Naxçıvan duzundan konservləşdirilmiş qovurmaya qədər xeyli çeşiddə müxtəlif məhsullar yer alıb. Muxtar respublikada iri özəl sektor təmsilçiləri olan "Gəmiqaya Holdinq", "Dizayn Holdinq", "Cahan Holdinq" şirkətlər ittifaqları, "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyəti, Babək "Sirab" Açıq Səhmdar Cəmiyyəti ilə yanaşı, çox sayda digər orta və kiçik biznes qurumlarının məhsulları da burada nümayiş etdirilir.

Fransalı diplomat Naxçıvan Dövlət Universitetində yaradılan şəraitlə də tanış olub, tədris prosesi ilə maraqlanıb.

Orelia Buşez "Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyətində də olub. Burada səfirə məlumat verilib ki, mineral suyun butulkalara doldurulması üçün istehsal sahəsində Fransanın "SİDEL" şirkətinin avadanlıqları quraşdırılıb. "Badamlı" mineral suyu beynəlxalq sərgilərdə yüksək qiymətləndirilir. Bu mineral suyun xarici ölkələrə ixrac olunması diqqət mərkəzində saxlanılıb, ötən il ilk dəfə olaraq mineral su dünya bazarının mühüm mərkəzlərindən biri olan Dubayda satışa çıxarılıb.

Diplomatın diqqətini çəkən tarixi yerlərdən biri də I Kültəpə yaşayış yeri olub. AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev qonaqlara məlumat verib ki, 2016-cı ilin avqust ayında bölmənin arxeoloji ekspedisiyası Fransa Milli Araşdırmalar Mərkəzinin arxeoloqları ilə birlikdə I Kültəpə yaşayış yerində tədqiqat işlərinə başlayıb. Fransa alimlərinin naxçıvanlı elm adamları ilə birlikdə Naxçıvanda arxeoloji tədqiqatlar aparması təkcə tariximizin öyrənilməsi baxımından deyil, həm də qədim tariximizin dünyada təbliği baxımından böyük əhəmiyyət daşıyır.

Duzdağ Fizioterapiya Mərkəzinə gələn səfirə bu müalicə ocağının fəaliyyəti haqqında ətraflı məlumat verilib.

Qeyd edək ki, Fransa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Orelia Buşez səfər çərçivəsində Dövlət Bayrağı Meydanı və Muzeyində, Naxçıvan Dövlət Xalça Muzeyində, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində olub, tarixi abidələr və mədəniyyət obyektləri haqqında ətraflı məlumat alıb.

# Orelia Buşez: "Naxçıvanın gözəlliyi, təmizliyi və abidələrinin qədimliyi dünya üçün bir nümunədir"



Fransa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Orelia Buşez səfər təəssüratları barədə qəzetimizə müsahibəsində deyib: "Mən Naxçıvanın bir çox yerlərində oldum və zəngin təəssüratlarım var. Amma bilmirəm ki, hansından başlayım. Sizin şəhərinizdə çox gözəl məqamları kəşf etdim. Naxçıvan əhalisinin yüksək qonaqpərvərliyi məni valeh etdi. Mən Duzdağdakı Fizioterapiya Mərkəzinə heyran qaldım və burada olduğuma görə çox məmnunam. İnanıram ki, mənimlə gələnlər də burada gördüklərini heç vaxt unutmayacaqlar. Bu yer çox qeyri-adidir. Burada insanlar rahatlıq və şəfa tapa bilirlər. Bu, çox yaxşıdır".

Səfər çərçivəsində muxtar respublikada keçirdiyi görüşlər barədə də danışan diplomat bildirib ki, burada bütün sahələrdə əlaqələri müzakirə etmək və bu əlaqələrin inkişafının mümkünlüyü barədə söhbət etmək imkanımız oldu. Təbii ki, əməkdaşlıq bir çox sahələrdə inkişaf etdirilir. Məsələn, təhsil, mədəniyyət sahəsində, universitetlər arasında. Xüsusilə universitetlər arasında əlaqələr fransız dilinin öyrənilməsi üçün böyük rol oynayır.

Orelia Buşez deyib: "Bildiyiniz kimi, fransız arxeoloqlar 10 ildən artıqdır ki, Naxçıvanda çalışırlar. Onların burada fəaliyyət göstərmələri üçün hər cür şərait yaradılıb. Gələn il Fransadakı muzeylərdən birində həmin tapıntılar əsasında "Naxçıvanın arxeoloji xəzinəsi" adı altında sərgi təşkil olunacaqdır".

Naxçıvanın gözəlliyinin, təmizliyinin və abidələrinin qədimliyinin dünya üçün bir nümunə olduğunu vurğulayan səfir qeyd edib ki, bu abidələr Azərbaycanın tarixi və mədəniyyəti haqqında bizə çox şeylər danışır.

O deyib: "Mən burada Möminə xatın türbəsini və Bayraq meydanını çox bəyəndim. Naxçıvanqala Naxçıvanın tarixini yaşadır. Həmçinin Nuh Peyğəmbərin də məzarüstü türbəsi heyranedicidir. Bir sözlə, naxçıvanlılara qonaqpərvərliklərinə görə "çox sağ ol" deyirəm. Mən burada olduğuma görə çox xoşbəxtəm".

**✍ Səbuhi HÜSEYNOV**

# Daşınmaz əmlak və torpaq münasibətlərinin tənzimlənməsi tədbirləri uğurla icra edilir

Muxtar respublikada torpaqların elektron uçotunun aparılması, torpaqlardan təyinatı üzrə səmərəli istifadə edilməsinə dövlət nəzarətinin gücləndirilməsi, vətəndaşların mülkiyyət hüquqlarının dövlət reyestrində qeydiyyata alınması zamanı operativliyin təmin edilməsi 2017-ci ilin 9 ayı ərzində Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən diqqət mərkəzində saxlanılmışdır. Torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtib olunması istiqamətində işlər davam etdirilmişdir. Komitənin informasiya infrastrukturunda yerləşdiriləcək müvafiq proqram təminatının hazırlanmasına başlanılmışdır. Naxçıvan şəhərinin 1, 2 və 3-cü sahə inzibati ərazi dairələrində, Şərur rayonunun Yengicə və Təzəkənd yaşayış məntəqələrində daşınmaz əmlak obyektlərinin plana alınması işi başa çatdırılmış, Naxçıvan şəhərinin 4-cü sahə inzibati ərazi dairəsində və Şərur rayonunun Düdəngə kəndində planaalma işləri aparılmış, Naxçıvan şəhəri üzrə 8013, Şərur rayonu üzrə 1434 daşınmaz əmlak obyekti plana alınmışdır.

Naxçıvan şəhər inzibati ərazi vahidinə daxil olan bütün bələdiyyələrin, Ordubad rayon inzibati ərazi vahidinə daxil olan 25 bələdiyyənin, Culfa rayon inzibati ərazi vahidinə daxil olan 11 bələdiyyənin sərhəd xəritələri və müvafiq yerquruluşu sənədləri elektron variantda hazırlanmış, torpaqların növləri üzrə uçotu aparılmışdır. Şərur rayonunun 40 bələdiyyəsinin və Babək rayonunun bütün bələdiyyələrinin mövcud mülkiyyət növləri üzrə torpaq sahələrinin elektron torpaq kadastr xəritələri hazırlanmış, kadastr xəritələrinin məlumatları ilə torpaq reyestrində saxlanılan məlumatların uyğunluğu yoxlanılmışdır. Şərur, Ordubad, Culfa, Şahbuz və Kəngərli rayonlarının yay otlaqlarının xəritəsi, Babək və Kəngərli rayonlarının dövlət ehtiyat fondu və qış otlaq sahələrində yerləşən əkinəyararlı torpaq sahələrinin yerquruluşu planı hazırlanaraq istifadə üçün aid dövlət qurumlarına təqdim edilmişdir. Bundan başqa, muxtar respublikanın geoloji və faydalı qazıntı xəritələri, Arazboyu ərazilərin rayonlar üzrə xəritələri, sənaye xəritəsi, Naxçıvan şəhəri üzrə inzibati ərazi dairələrinin bölgü sxemi, Naxçıvan şəhərinin sahə inzibati ərazi dairələrinin yerquruluşu planı hazırlanaraq aid təşkilatlara göndərilmişdir.

"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın müvafiq bəndlərinin icrası məqsədilə Şərur rayonunun Çomaxtur, Şahbuz rayonunun Kiçikoba, Ordubad rayonunun Düylün, Sədərək rayonunun Sədərək kəndlərində yerli icra nümayəndələrinin və bələdiyyələrin iştirakı ilə əkin atlaslarına uyğun meyvə-tərəvəz əkinlərinin aparılması və torpaqlardan səmərəli istifadə ilə bağlı maarifləndirici tədbirlər keçirilmişdir.

Bu ilin 9 ayı ərzində daşınmaz əmlakın dövlət reyestrində 3731 daşınmaz əmlak obyekti qeydiyyata alınmış, 2753 texniki sənəd hazırlanmışdır. Yeni yaranmış 572 daşınmaz əmlak obyektinə ünvan verilmişdir. Vətəndaşların rahatlığını və işlərin operativ təşkilini təmin etmək üçün muxtar respublikanın 70 yaşayış məntəqəsində 640 vətəndaşa səyyar xidmət göstərilmişdir. Daşınmaz əmlakın real bazar dəyərinə uyğun qiymətləndirilməsi ilə əlaqədar 97 müraciət icra edilmiş, 971 əmlak dəyəri məlumat bazasına daxil edilmişdir.

Muxtar respublikanın torpaq fondundan səmərəli istifadəyə dövlət nəzarətinin gücləndirilməsi və vətəndaşların mülkiyyət hüquqlarının dövlət reyestrində qeydiyyata alınmasında operativliyin təmin edilməsi istiqamətində səylər daha da artırılacaqdır.

***Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Ədəbiyyatımızın Məmməd Araz zirvəsi

## Bu zirvədə söz ehkam taxtındadır



***Ötən günlərin birində Şahbuz rayonunda ezamiyyətdə olarkən "Vətən mənə oğul desə, nə dərdim", – deyən ustad şairimiz Məmməd Arazın doğulduğu Nursu kəndinə də getdim. Bir vaxtlar Məmməd Araz Nursu haqqında nisgilliklə yazırdı:***

*Kəndim, balacasan, çox balacasan,*
*Adın yox dünyanın xəritəsində.*
*Atılıb qalmısan gözlərdən uzaq*
*Çaylı, baldırğanlı dağ dərəsində.*

Şair həmin şeirində doğma kəndini tozlu küçələrinin sayına görə dünyanın birinci kəndi sayırdı. Bu gün o kənd gözlərdən uzaqda deyil. Adı da dünyanın xəritəsindədir. Küçələri də şəhərlərimizin küçələrindən seçilmir. O da xüsusi qeyd olunmalıdır ki, doğulub boya-başa çatdığı, hər gülü, çiçəyi, hər daşı, qayası ilham mənbəyi olan Nursu kəndində görkəmli sənətkarın bir neçə il əvvəl yaradılmış ev-muzeyi Məmməd Arazla yanaşı, ümumən, Azərbaycan ədəbiyyatına, mədəniyyətinə, incəsənətinə böyük diqqət və ehtiramın ifadəsi kimi dəyərləndirilib. Bununla Vətən ona bir daha oğul deyib.

...Bu da Məmməd Arazın ev-muzeyi. Və ilk anda düşüncələrimə bir fikir hakim kəsilir: Ədəbiyyatımızı yaradan korifey sənətkarların itkisi böyükdür. Etiraf edək ki, belə itkilərin yerinin doldurulması mümkün deyil və əgər mümkün olarsa, bu, ulu Tanrının işidir. Məmməd Araz belə sənətkarlar sırasında özünəməxsus yer tutub. Ədəbiyyatımızda onun çatdığı Məmməd Araz zirvəsi bu gün poeziya həvəskarlarının mənəvi qida aldıqları bir ünvandır. Bu ünvanda söz ehkam taxtındadır. Müqəddəsdir, təmizdir söz, aliliyin sinonimidir, ləkə götürmür. Anamızın şirin laylasıdır, körpələrimizin nəğməsidir, sevgimizi bu varlıqla ifadə edirik; düşmənə sözlə qılıncdan da güclü zərbə vurmaq olar.

Dahi Füzulini "sözün günəşi", "söz dünyasının məhvəri" adlandıran şair üçün sözün qaynağı haradan başlayır?

*Azərbaycan – mayəsi nur, qayəsi nur ki,*
*Hər daşından alov dilli ox ola bilər.*
*Azərbaycan deyiləndə ayağa dur ki,*
*Ana yurdun ürəyinə toxuna bilər.*

Məmməd Araz sözünün qaynaqlandığı torpaq Azərbaycandır. O Azərbaycan ki, qayalarda bitən çiçək, çiçəklərin





içində qayadır. O Azərbaycan ki, şair bu torpağı vəsf edərək Azərbaycan dünyasından dünyaya baxır. O Azərbaycan Məmməd Araz dünyasının qibləgahıdır. Bu qibləgahın min illərə bərabər tarixi var. Bu tarixi vərəqləmək üçün bir insan ömrü bəs etməz. Qəhrəmanlıq, əzəmət, vüqar, məğrurluq, şan-şöhrət dolu həmin tarix bu xalqın yaddaş kitabıdır, kimliyidir, mənəviyyatıdır, dosta sevgisi, düşmənə qəzəbidir, bu günüdür, sabaha cavabdehliyidir...

*Dişimiz qalmadı söz çeynəməkdən,*
*Bol məhsul olarmı, balam, bu qədər?!*

*"Saç ağartdım söz yolunda"*, – deyən şair söz urvatdan düşəndə bu qiymətli, əvəzsiz varlığı "məhsul" adlandırmaqdan başqa bir söz tapa bilmir. Bu, Məmməd Arazın sözə böyük ehtiramının elə sözlə də ifadəsidir. Bütün şeirlərində şairin sözə munis münasibətini hiss etmək çətin deyil. Maraqlı orasıdır ki, şair bunu oxucuya çatdırmağı qarşısına məqsəd qoymur; bu, şairin təbiətindən, sözə mehrindən irəli gəlir, söz də onun sözündən çıxmır.

Sözlə qapılar açmaq da olar, bağlamaq da. Söz inamdır, söz imandır; odda yanmır, buzda donmur. Çünki o, böyük qüdrətə sahibdir. Min illər boyu bu həqiqət sınanıb. Şairi bir də düşündürən odur ki, sözdən bəzi şairlər ayrı-ayrı məqamlarda ayrı-ayrı məqsədlər üçün istifadə ediblər, ucuzlaşdırıblar sözü. Burada daxili bir haray yeni şeirin misralarına hopub:

*Sirr açar, dürr açar açarımız da,*
*Od donsa, buz yansa – inam ələnməz;*
*Söz açıq olanda içərimizdə*
*"Yalanlar, filanlar" qafiyələnməz.*

Şair içdən gələn bir ağrı ilə qələm sahiblərinə üzünü tutur; onları sözü ucuzlaşdırmamağa çağırmaqla yanaşı, poeziyada sözdən alət kimi istifadə edənləri söz atəşi ilə qamçılayır:

*Hərdən qulaqlarım gözsüz olanda*
*Ürəyim dünyanı eşidə bilmir.*
*Sözlü olmayanda, sözçü olanda*
*Qələmim dərinə işləyə bilmir...*

Sözçü olub, sözlü olmayanlara Məmməd Araz ustad Molla Pənah Vaqifə istinad edərək deyir:

*Sözü ayaqlara atmadığından,*
*Özü vəzir oldu, sözü şah oldu.*

*"Yıxın məni söz atından, kəsmir əgər söz qılıncım"*, – deyən şair sözdən söz kimi istifadə etməyənlərə, poeziya adlı kəhkəşanda müqəddəsliyə başqa prizmadan yanaşanlara sözünü deməyi özünün borcu sayır. Burada şairin həm də doğma ana dilimizə, onun söz adlı dünyasına sonsuz məhəbbəti bir daha təsdiqlənir:

*Bu sözdü – dərddi, qəhərdi,*
*Sonu işıqdı, səhərdi,*
*Atdı, cilovdu, yəhərdi,*
*Söznən zarafat eyləmə!*

✍ **Muxtar MƏMMƏDOV**

## Beynəlxalq Kulinariya Günü qeyd olunub



***Oktyabrın 20-də Beynəlxalq Kulinariya Gününə həsr edilmiş tədbir keçirilib. Əvvəlcə milli yeməklərimizdən ibarət sərgiyə baxış olub.***

Tədbiri Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri Əkbər Novruzov açaraq bildirib ki, ölkəmizin hər bir regionunun öz adət-ənənələri olduğu kimi, Naxçıvanın da özünəməxsus ləziz yemək növlərindən ibarət mətbəx mədəniyyəti vardır. Burada süfrə mədəniyyəti hər zaman ən yüksək səviyyədə qorunub saxlanılıb, bərəkətin rəmzi kimi süfrəyə böyük ehtiram göstərilib, süfrə estetikası və etikasına son dərəcə dəqiqliklə əməl olunub. Naxçıvan mətbəxinin bu zəngin mənzərəsi, muxtar respublikamızda kulinariya turizminin inkişafı üçün də gözəl zəmin yaradır.

Vurğulanıb ki, muxtar respublikada milli mətbəxin təbliği diqqət mərkəzindədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 9 aprel tarixli Sərəncamı ilə "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzinin yaradılması bunun bariz ifadəsidir.

Tədbirdə "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzinin direktoru Türkay Səfərzadə Beynəlxalq Kulinariya Gününün yaranma tarixindən, ölkəmizdə geniş qeyd olunmasından ətraflı söhbət açıb.

Bildirilib ki, xalq yaradıcılığının ən qədim sahələrindən olan kulinariya mədəniyyətinin sistemli şəkildə öyrənilməsi və inkişaf etdirilməsi, təbliğ olunması və tanıdılması məqsədilə Naxçıvanda yaradılan "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzi ötən dövr ərzində qarşıya qoyulan vəzifələrin öhdəsindən gəlməyə səy göstərib və bu gün də öz fəaliyyətini bu istiqamətdə davam etdirir. Bunun üçün mərkəzdə hərtərəfli şərait yaradılıb.

Tədbirin sonunda "Azərbaycan mətbəxi" adlı tanıtım filmi nümayiş etdirilib.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

## Gənclərimiz ümumdünya festivalında iştirak edirlər

***Oktyabrın 14-dən 22-dək Rusiya Federasiyasının Soçi şəhərində keçirilən Tələbə və Gənclərin XIX Ümumdünya Festivalında Naxçıvan Muxtar Respublikası da təmsil olunur. Ümumilikdə, Azərbaycandan 150 nəfərlik heyət festivala yollanıb ki, onlar arasında naxçıvanlı gənclər də var.***

150 ölkədən 18-35 yaşlı 20 mindən çox gənc mütəxəssisin qatıldığı festivalın əsas məqsədi gənclər arasında əlaqələrin möhkəmləndirilməsidir.

Festival BMT-nin XVII davamlı inkişaf proqramı çərçivəsində həyata keçirilir və əsas altı dili – ərəb, çin, ingilis, fransız, rus və ispan dillərini əhatə edir. Festivalda aktual məsələlər, idmanın inkişafı ilə bağlı açıq müzakirələr, habelə mədəniyyət və qloballaşma, qlobal iqtisadiyyat, elmi iqtisadiyyat, ictimai qurumların inkişafı, siyasət və beynəlxalq təhlükəsizlik mövzularını əhatə edən diskussiyalar aparılır.

Festivalın proqramı çox zəngindir və Soçidən başqa Rusiyanın digər regionlarını da əhatə edir. Gənclər "Mədəniyyət və qloballaşma", "Qlobal iqtisadiyyat", "Biliklərin iqtisadiyyatı", "İctimai qurumların inkişafı", "Siyasət və beynəlxalq təhlükəsizlik" mövzularına həsr olunmuş tədbirlərdə iştirak edir, klassik və milli musiqidən ibarət konsert proqramlarında çıxış edirlər. İştirakçılara yeni idman növlərini və bacarıqlarını nümayiş etdirməyə imkan yaradılıb. Proqrama 2017 metrlik festival qaçışı yarışı, akrobatik rok-n-rol üzrə Rusiya Federasiyasının interaktiv zonası – "Rəqs Planeti"nin açılış tədbiri, futbol üzrə fan festivalı və qitələrarası kubok və başqa tədbirlər daxil edilib.

## Karate-do üzrə yoldaşlıq görüşü keçirilib



***Culfa şəhər 3 nömrəli tam orta məktəbin idman zalında oğlan və qızlardan ibarət "Culfa", "Naxçıvan" və "Ordubad" komandaları arasında karate-do üzrə yoldaşlıq görüşü keçirilib.***

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov, Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının sədr müavini Nəriman Quliyev və Culfa Rayon Gənclər və İdman İdarəsinin rəisi Ümid Həsənli çıxış edərək yarışın qaydaları haqqında idmançılara geniş məlumat verərək onlara uğurlar arzulayıblar.

Yoldaşlıq görüşünü keçirməkdə məqsəd bu idman növünü yeniyetmə və gənclər arasında təbliğ etməkdən ibarət olub. Görüşdə 100-ə yaxın oğlan və qız idmançı iştirak edib. 8 yaş qrupu üzrə təşkil edilən görüş beynəlxalq qaydalar əsasında keçirilib.

Yarışın nəticələrinə əsasən oğlanlar arasında 8-9 yaş qrupunda Həbib Əhmədov (Culfa), 10-11 yaş qrupunda Məhəmməd Bağırov (Culfa), 12-13 yaş qrupunda Vüsal Seyidov (Naxçıvan), 14-15 yaş qrupunda İmran Həsənov (Naxçıvan), 16-17 yaş qrupunda Aslan İsmayılov (Naxçıvan), qızlar arasında isə 8-9 yaş qrupunda Özləm Hacıyeva (Naxçıvan), 10-11 yaş qrupunda Aminə Novruzzadə (Naxçıvan) və 12-13 yaş qrupunda Səmra Məmmədli (Naxçıvan) bütün görüşləri qalib kimi başa vuraraq birinci yerlərə layiq görülüblər.

Komanda hesabında isə "Naxçıvan" qalib adını qazanıb. "Culfa" ikinci, "Ordubad" komandası isə üçüncü olub.

Sonda yer tutan idmançılara diplomlar təqdim edilib.

## Dünya rekordçusu ilə heç-heçə




Rusiya Federasiyasının Soçi şəhərində keçirilən Tələbə və Gənclərin XIX Ümumdünya Festivalı davam edir. Ötən gün festivalda gözübağlı sinxron şahmat oyunu keçirilib. 24 ölkənin zəka sahiblərinin mübarizə apardığı oyunda Naxçıvan şahmat məktəbinin yetirməsi, FİDE ustası Toğrul Həsənzadə də iştirak edib.

Təmsilçimiz gözübağlı 24 şahmatçı ilə mübarizə aparan və gərgin keçən görüşlərdə 22:2 hesabı ilə qalib gələn dünya rekordçusu, amerikalı qrossmeyster Timur Qarayevlə heç-heçə edib.

✍ **Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 840